# Heydər Əliyevin xatirəsinə həsr olunan elmi sessiya keçirilib

Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunan elmi sessiya keçirilib. Əvvəlcə tədbir iştirakçıları ümummilli liderin universitetdə ucaldılan büstü önünə gül dəstələri qoyaraq xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Sonra Texnologiya və dizayn fakültəsinin tələbələrinin "Heydər Əliyev və Azərbaycanın müasir inkişafı" mövzusunda keçirilən rəsm müsabiqəsinə təqdim edilən əsərlərdən ibarət sərgi ilə tanış olublar.

Elmi sessiyada UNEC rektoru, professor Ədalət Muradov ulu öndərin keçdiyi mənalı həyat yoluna nəzər salıb. Bildirib ki, ulu öndər sürətlə inkişaf edən bugünkü Azərbaycanımızın inkişafının təməl daşını respublikaya rəhbərliyinin ilk dövrlərində atıb. Dövlətimizin müstəqillik illərindəki dərin böhrandan çıxaraq, dinamik inkişaf edən ölkələr sırasında yer almasına görə ümummilli liderə borcluyuq. Heydər Əliyev elə bir zirvədir ki, ona çatmaq mümkün deyil.





Rektor qeyd edib ki, xalqın rifahının təminatı, əhalinin sosial müdafiəsinin gücləndirilməsinin təməli məhz ümummilli lider tərəfindən qoyulub. Bu gün keçirilən elmi sessiyanın əsas məqsədi ulu öndərin yaratdığı Azərbaycanın sosial siyasətinə elmi baxış keçirməkdir. Ədalət Muradov bildirib ki, elmi-tədqiqat yönümlü instituta çevrilməkdə iddialı olan UNEC ulu öndərin sosial siyasətini yenidən tədqiq edərək, bu sahəyə öz töhfələrini verəcək.

Sessiyada çıxış edən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli bildirib ki, ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə ölkədə başlanan yeni siyasi kurs sosial siyasətə təsirsiz ötüşmədi. Müstəqil dövlətin bazar iqtisadiyyatına keçidlə bağlı sosial siyasətinin formalaşması dövlətin kompleks inkişafının tərkib hissəsi kimi nəzərdən keçirildi. Yeni iqtisadi sistemə keçid zamanı Azərbaycanın hansı modeldən faydalanmasına dair müxtəlif fikirlər irəli sürülsə də, Heydər Əliyev bazar münasibətləri əsasında formalaşan sosialyönümlü milli iqtisadiyyatın qurulmasını əsas strategiya kimi müəyyənləşdirdi. Ulu öndərin əsasını qoyduğu sosial siyasətin xarakterik cəhətlərini vurğulayan Hadi Rəcəbli bu siyasətin dayanıqlı olması, ölkənin iqtisadi bazisinə əsaslanması, mükəmməl və dünya təcrübəsində uğurla sınaqdan çıxmış normativ-hüquqi bazaya söykənməsini diqqətə çatdırdı. Ulu öndərin müəllifi olduğu sosial siyasətin inkişaf tarixinə nəzər salaraq ölkə iqtisadiyyatının tənəzzüldən çıxmasından, daxili sabitliyin təmin edilməsindən sonra sosial siyasət sahəsində atılan əhəmiyyətli addımlardan danışdı.

UNEC-in İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutunun şöbə müdiri Rəşad Hüseynov "Azərbaycan Respublikasının sosial inkişafının Heydər Əliyev epoxası" mövzusunda təqdimatla çıxış etdi.

***"Azərbaycan"***